**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Məktəbəqədər təhsi fakültəsi**

**TƏSDİQ EDİRƏM**
**Məktəbəqədər təhsilin pedaqogikası**
**kafedrasının müdiri**
**prof.M.İ.İlyasov_____________**

**___saylı protokol ________________**

# FƏNN SİLLABUSU
## (İşçi tədris proqramı)

**İxtisasın kodu və adı: 050112.** *Məktəbəqədər təhsil*

**Kafedra: Məktəbəqədər təhsilin pedaqogikası**
**Fənn haqqında məlumat:**
**Fənnin kodu və adı: İPF-BO1 Pedaqogika**
**Kredit sayı:** 5
**Təhsil səviyyəsi**: *Bakalavriat*
**Tədris yükü (saat) cəmi:** *150 ümumi saat, 90 auditoriyadankənar saat, 60 auditoriya saatı, 30 mühazirə saatı, 30 seminar məşğələ saatı*
**Tədris ili:** _______; **Semestr:** *II – yaz;* **Bölmə:** Azərbaycan,
**Qrup**:_____________

***Müəllim haqqında məlumat:***

**Məsləhət günləri və saatları:**
**E-mail ünvanı:**
**Mobil :**
**İş telefonu:**

**Fənnin öyrənilməsi üçün materiallar:**

**Zəruri ədəbiyyatlar:**

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Dərslik. Çıraq, 2011.
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Dərslik. Bakı: Nurlan, 2007.
3. Qasımova L., Mahmudova R. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012.
4. Əhmədov H., Zeynalova N. Pedaqogika. Dərslik. Bakı: "Elm və təhsil", 2016.
5. Həsənov A., Ağayev Ə. Pedaqogika. Dərslik. Nasir, 2007.
6. Ağayev Ə. və b. Pedaqogika, Bakı: Adiloğlu, 20006.
7. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: "Elm və təhsil", 2013.
8. Коджаспирова Г.М. Педагогика. Учебник. Москва: КНОРУС, 2010.
9. Педагогика. Под ред. Л.П. Крившенко. Учебник. Москва: ТК Велби, Из-во Проспект, 2006.

**<u>Əlavə tövsiyyə olunan ədəbiyyatlar:</u>**

10. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.
11. Azərbaycan respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı: 2013.
12. Əlizadə Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
13. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin aktual problemləri. Bakı: "Elm və təhsil", 2018.
14. Pedaqoji Univesitet Xəbərləri. Humanitar, ictimai və pedaqoji - psixoloji elmlər seriyası. Bakı: ADPU, 2010 - 2019-cu illər.

**<u>Fənnin təsviri</u>:** Bu fənn pedaqogikanın nəzəri-metodoloji məsələlərini, tarixini, təlim, tərbiyə, təhsil anlayışlarını, pedaqoji prosesin təbiətini, texnoloji əsaslarını, təhsilşünaslıqda pedaqogikanın tədqiq etdiyi problemlərin həllinə yanaşmaları, müasir nəzəri fikir və qabaqcıl təcrübə nöqteyi-nəzərindən geniş şəkildə əhatə edir.

**<u>Fənnin hədəf və məqsədi</u>:** Pedaqogika fənninin hədəfi və başlıca məqsədi gələcək müəllim və tərbiyəçilərin dərin nəzəri biliklərə və peşəkar bacarıqlara yiyələnməsi, əmək bazarının artan tələbatına müvafiq rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşdırılmasına nail olmaqdır.

**<u>Fənnin qısa məzmunu</u>:** Pedaqogika fənni tədris planına əsasən 60 saat auditoriya məşğələsindən ibarətdir: 30 saat mühazirə və 30 saat seminar. Pedaqogika fənni tələbələrin peşə hazırlığında və pedaqoji elmlər sistemində əsas, baza fənndir. Klassik formada 4 bölmədən ibarətdir: 1) pedaqogikanın ümumi əsasları, 2) təlim və təhsil nəzəriyyəsi (Didaktika), 3) tərbiyə nəzəriyyəsi, 4) məktəbin idarə olunması və ona rəhbərlik (Məktəbşünaslıq).

**<u>Fənnin təlim nəticələri</u>**:

- **FTN 1** Pedaqogikanın nəzəri əsaslarını, pedaqoji prosesin qanunauyğunluqlarını və yeni pedaqoji texnologiyaları müqayisə edərək tətbiq edir
- **FTN 2** Pedaqoji prosesin mahiyyətini, qanunauyğunluqlarını, prinsiplərini, məzmunu, metod larını, vasitələrini, texnologiyalarını, təşkili formalarını ixtisasına uyğun olaraq sintez edir
- **FTN 3** Pedaqogikanın nəzəri-praktik əsaslarını, idarəetmənin forma,metodlarını müqayisə və tətbiq edir;
- **FTN 4** Şəxsiyyətin inkişafına və formalaşmasına təsir edən amilləri müqayisəli təhlil edir
- **FTN 5** Təlimin və tərbiyənin təşkilində səmərəli texnologiyaları vəziyyətə uyğun müəyyən edir
- **FTN 6** Pedaqoji prosesi təşkil etmək, təlim-tərbiyə prosesinin nəzəriyyə və texnologiyalarını müəyyən edərək praktik tətbiq edir.

**Fənnin tədrisində istifadə olunan tədris metodları:**

*Bu tələblər aşağıdakı kimi müəyyən olunur:*

- *mühazirə, seminarlar və praktiki tapşırıqlar;*
- *təqdimatlar, müzakirələr və debatlar;*
- *müstəqil iş/ araşdırma ( məsələn, praktiki nümunələrlə iş);*
- *layihələr*
- *problemlərə əsaslanan tədris;*
- *sahə işləri;*
- *rol oyunları;*
- *hesabatlar;*
- *qrup qiymətləndirməsi;*
- *ekspert metodu;*
- *video və audio mühazirələr;*
- *distant təhsil;*
- *stimulyasiyalar və s.*

***Qaydalar (Tədris siyasəti və davranışı):***

- ***Davamiyyət.*** Tələbənin fənn üzrə apa*rılmış auditoriya saatlarının iştirak etmək həddi vardır. Bu səbəbdən də müəllim tədris etdikləri fənlər üzrə tələbələrin dərslərə davamiyyətinin düzgün qeydiyyatına cavabdehdir.* ***Bütün dərslərdə iştirak edən tələbə 10 bal qazanır. Auditoriya saatlarının 25% dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır!***
- ***Akademik plagiat.*** *Plagiat (məsələn, yetərincə istinad verilmədən internetdən köçürmə), kollokviumlarda və ya imtahanda köçürmə cəhdləri (köçürmə baş tutmasa belə!) və ya digər tələbə ilə müzakirə (kömək etmək və ya kömək almaq cəhdləri) tələbənin həmin fəndən çıxarılmasına (akademik kredit borcuna) səbəb olur. Belə halları görən müəllim fakültə rəhbərliyini dərhal xəbərdar etməlidir.*

***Auditoriyada etik davranış qaydaları:***

- ***Dərsdə mövzudan kənar söhbətlər:*** *dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir.* ***Başqalarına qarşı diqqətli olun, onların hüquqlarına və fərdi mövqelərinə hörmətlə yanaşın****.*
- ***Diqqətsizlik:*** *Akademik dərs saatlarında tələbələrin müzakirələrə qoşulması gözlənildiyinə görə diqqətli olmaq tələb edilir. Bu tələbəyə tədris olunan materialı mənimsənilməsinə kömək edir. Dərs vaxtı elektron qurğulardan ancaq tədris məqsədləri üçün istifadə etmək olar. Mobil telefonlar dərs vaxtı söndürülməlidir.*

- **<u>Tapşırıqlar siyasəti:</u>**
  - ***Tapşırıqların verilməsi və qəbulu:*** *Tapşırıqlar vaxtında tələbəyə təqdim olunmalı və nəzərdə tutulmuş müddətdə icra olunaraq, təhvil verilməlidir. Gecikdirilmiş tapşırıq qəbul edilməyəcək.*
  - ***Təqdimatlar:*** *Mövzu üzrə təqdimatlar, layihələr, hesabatlar və digər tapşırıqlar akademik saat ərzində təqdim olunur.Onların qiymətləndirilməsi də dərs zamanı aparılır.*
  - 

**Tələbənin müstəqil işi üçün tapşırıqlar**

Semestr ərzində 2 sərbəst iş tapşırığı verilir, hər tapşırığın yerinə yetirilməsi 5 balla qiymətləndirilir. Sərbəst işin mövzuları - qiymətləndirmə üsulu şifahi sorğu olduqda- **əlyazma (referat),** təqdimat olduqda isə **Power Point təqdimatı** formasında təhvil verilməlidir.

Sərbəst iş tələbənin fərdi fikirlərinin nəticəsi olduğundan **<u>plagiat yolverilməzdir.</u>**

Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyən edilir.

| № | Sərbəst işin mövzusu | Sərbəst işin təhvil veril-məsinin son tarixi | Qiymətləndirmə üsulu |
|---|---|---|---|
| 1 | Pedaqogikanın bir elm kimi meydana gəlməsi və inkişaf istiqamətləri | | Referat, şifahi sorğu |
| 2 | Pedaqogika təlim, tərbiyə və təhsil haqqında elm kimi | | Təqdimat |
| 3 | Görkəmli şəxsiyyətlər müəllim haqqında | | Referat, şifahi sorğu |
| 4 | Pedaqoji prosesdə peşəkarlıq və səriştəlilik | | Təqdimat |
| 5 | Pedaqoji fəaliyyətin humanist istiqamətliliyi | | Referat, şifahi sorğu |
| 6 | Ənənəvi və interaktiv təlim metodları: müqayisə və paralellər | | Təqdimat |
| 7 | Təhsil sahəsində dövlət sisyasətinin əsas prinsipləri, onların icmalı | | Referat, şifahi sorğu |
| 8 | Şəxsiyyətin inkişafı, tərbiyəsi və formalaşması nəzəriyyələri | | Referat, şifahi sorğu |
| 9 | Müasir təlim texnologiyaları | | Təqdimat |
| 10 | Müasir dərs və ona verilən tələblər | | Referat, şifahi sorğu |
| 11 | Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, hədəflər, perspektivlər | | Təqdimat |
| 12 | Pedaqoji prosesdə innovasiyalr | | Referat, şifahi sorğu |
| 13 | Pedaqoji dəyərlər təlim-tərbiyə prosesinin keyfiyyətini yüksəldən amil kimi | | Referat, şifahi sorğu |
| 14 | Müəllim-şagird münasibətləri, pedqoji əməkdaşlıq | | Təqdimat |
| 15 | “Təfəkkür məktəbi”, üstünlüklər və yeniliklər | | Referat, şifahi sorğu |
| 16 | Şəxsiyyətyönümlü təhsil, mahiyyət və vəzifələr | | Referat, şifahi sorğu |
| 17 | Ailə ilk tərbiyə ocağı, tərbiyə məktəbi kimi | | Referat, şifahi sorğu |
| 18 | Pedaqoji ustalıq, onun səciyyəvi xüsusiyyətləri | | Referat, şifahi sorğu |
| 19 | Təlim taksonomiyaları (B.Blum, Ə.Əlizadə və b.) | | Təqdimat |
| 20 | Əxlaq tərbiyəsi şəxsiyyətin mədəniyyətinin əsası kimi | | Referat, şifahi sorğu |
| 21 | Tərbiyədə milli xüsusiyyətlərin nəzərə alınması | | Referat, şifahi sorğu |
| 22 | Şagirdlərdə vətəndaşlıq və vətənpərvərlik keyfiyyətlərinin formalaşdırılması | | Referat, şifahi sorğu |
| 23 | Özünütəhsil və özünütərbiyə şəxsiyyətin inkişafının əsas vasitəsi kimi | | Referat, şifahi sorğu |
| 24 | Müəllim nüfuzunun qorunması və yüksəldilməsi yolları | | Referat, şifahi sorğu |
| 25 | Müəllimin pedaqoji qabiliyyətləri | | Təqdimat |
| 26 | Məktəb təlim-tərbiyə işinin mərkəzi kimi | | Referat, şifahi sorğu |
| 27 | Sinif rəhbəri - rəhbər, dost və tərbiyəçi kimi | | Referat, şifahi sorğu |

Balların maksimum miqdarı – 100 bal.

***Semestr ərzində toplanan maksimum bal* – 50 bal.**

| | |
|---|---|
| Dərsə davamiyyətə görə | 10 bal |
| Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə<br>**Qeyd: Plagiat halları qəti qadağandır!** Sərbəst işlə əlaqədar bütün tapşırıqların adı, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu cədvəldə göstərilmişdir. | 10 bal |
| Seminar (məşğələ) nəticələrinə görə<br><br>Kollokvium | 20 bal<br><br>10 bal |

- ***10 bal*** - *tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
- ***9 bal*** - *tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir.*
- ***8 bal*** - *tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
- ***7 bal*** - *tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
- ***6 bal*** - *tələbənin cavabı əsasən düzgündür.*
- ***5 bal*** - *tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
- ***4 bal*** - *tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
- ***3 bal*** - *tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;*
- ***1-2 bal*** - *tələbənin mövzudan qismən xəbəri var;*
- ***0 bal*** - *suala cavab yoxdur.*

- ***Semestr imtahanı nəticəsinə görə* - maksimum 50 bal**

Hər biletdə – **5 sual (4 nəzəri sual və 1 məsələ)**, hər suala – **10 bal** verilir.

**<u>Qeyd:</u>** ***Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.***

- ***Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **Yaxşı** | **C** |
| **61 – 70 bal** | **Kafi** | **D** |
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 - baldan aşağı** | **qeyri-kafi** | **F** |

- **İmtahan sualları:**

1. Pedaqogikanın  mövzusu, məqsədi, vəzifələri  (funksiyaları)
2. Pedaqogikanın əsas anlayışları, onların xüsusiyyətləri.
3. Pedaqogikada diferensasiya və inteqrasiya problemi.
4. Pedaqoji elmlər sistemi
5. Pedaqogikanın başqa elmlərlə əlaqəsi.
6. Pedaqoji proses, onun mahiyyəti, məzmunu
7. Pedaqogika elminin  metodologiyası
8. Pedaqogikanın elmi-tədqiqat metodları
9. Şəxsiyyətin inkişafının başlıca istiqamətləri
10. Şəxsiyyətin inkişafının yaş dövrləri, onların xarakteristikası
11. Şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri və qanunauyğunluqları
12. Şəxsiyyətin formalaşmasına təsir edən amillər
13. Didaktika haqqında anlayış, didaktikanın tədqiq etdiyi problemlər
14. Təlim didaktik proses kimi, təlim motivləri
15. Təlim və təhsil prosesinin mahiyyəti, təlimin funksiyaları (vəzifələri)
16. Təlimin mahiyyətinə metodoloji yanaşmalar (Bhoverizm, Praqmatizm, Ekssensializm, Neotomizm)
17. Azərbaycan Respublikasının təhsil sistemi, onun  quruluşu və təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri
18. Təhsil pillələri və səviyyələrinin məzmunu, xarakteri
19. Məktəbəqədər təhsil, onun məqsədi, məzmunu və xarakteri
20. Təlimin qanunları, qanunauyğunluqları, prinsipləri anlyışları
21. Təlimin prinsipləri  və onların təsnifatı.
22. Təlimin elmilik prinsipi
23. Təlimin nəzəriyyənin praktika ilə əlaqəsi prinsipi
24. Təlimin əyanilik prinsipi
25. Təlimin müvafiqlik prinsipi
26. Təlimdə sistematiklik və ardıcıllıq prinsipi
27. Təlimdə biliklərin möhkəmləndirilməsi prinsipi
28. Təhsilin məzmunu anlayışı, onun mahiyyəti
29. Təhsilin məzmununu müəyyənləşdirən əsas sənədlər, onların xüsusiyyətləri.
30. Təhsl proqramı (kurikulum), onun mahiyyəti və vəzifələri
31. Dövlət təhsil standartları
32. Təlim  metodları, tərzləri  və vasitələri anlayışı.
33. Təlim metodlarının təsnifatı
34. Təlimin  formaları və  təşkili formaları haqqında anlayışı
35. Təlimin dərsdənkənar təşkili formaları
36. Təlimin növləri,  vasitələri
37. Müasir dərsə verilən tələblər
38. Fəal ( interaktiv)  təlim metodları
39. Pedaqoji  texnologiyalar, onun mahiyyəti
40. Müasir təlim texnologiyaları, onların icmalı
41. Təlimdə diaqnostika və yoxlama, təlimin keyfiyyətinə nəzarətin növləri və metodları.
42. Qiymətləndirmə. Qiymətləndirmə zamanı yol verilən səhvlər
43. Tərbiyənin mahiyyəti, məqsədi,  vəzifələri və tərbiyə prosesinin məzmunu
44. Tərbiyə prosesinin mərhələləri və xüsusiyyətləri.
45. Şəxsiyyətin özünütərbiyəsi və yenidən tərbiyəsi.
46. Tərbiyənin qanunauyğunluqları və hərəkətverici qüvvələri
47. Tərbiyənin prinsipləri, onların icmalı.
48. Tərbiyənin milliliyi və məqsədyönlülüyü prinsipi

49. Tərbiyədə yaşauyğunluq, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi.
50. Tərbiyədə nikbinlik, hörmət və tələbkarlıq prinsipləri.
51. Tələblərdə vahidlik, sözlə əməlin və şüurla davranışın əlaqəliliyi prinsipi.
52. Şəxsiyyətin kollektivdə tərbiyəsi prinsipi
53. Pedaqoji təsirlərin vahidliyi və sistemliliyi prinsipi
54. Ümumbəşəri dəyərlər şəxsiyyətin mədəniyyətinin əsası kimi və pedaqoji dəyərlər anlayışı, onların mahiyyəti
55. Əqli tərbiyənin mahiyyəti, vasitələri və elmi dünyagörüşün formalaşdırılması yolları.
56. Əxlaq tərbiyəsinin mahiyyəti, məzmunu
57. Şagirdlərdə vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin formalaşdırılması yolları
58. Şagirdlərin fiziki və estetik tərbiyəsinin mahiyyəti, məzmunu və formalaşdırılması yolları.
59. Şagirdlərin əmək tərbiyəsinin mahiyyəti, məzmunu və şagirdlərin peşəyönümü, onun formalaşdırılması yolları.
60. Şagirdlərin hüquq, ekoloji və iqtisadi tərbiyəsinin məzmunu və formalaşdırılması yolları.
61. Tərbiyənin metodları, onların təsnifatı
62. Tərbiyənin tərzləri və vasitələri
63. Şəxsiyyətin şüurunun və əqidəsinin formalaşmasına xidmət edən metodlar
64. Fəaliyyətin təşkili və ictimai davranış təcrübəsinin formalaşmasına xidmət edən metodlar
65. Fəaliyyət və davranışın stimullaşdırılması və qiymətləndirilməsi metodları
66. Tərbiyə işinin formaları, sinifdən və məktəbdənkənar tərbiyə işləri
67. Tərbiyə texnologiyaları
68. Məktəb təlim-tərbiyə işinin mərkəzi kimi. Məktəb özünüidarəsi
69. Məktəbin idarə edilməsi. Məktəbi idarəetmənin funksiyaları, formaları və metodları
70. Məktəbə rəhbərlik, məktəb rəhbərlərinin hüquqları və vəzifələri
71. Məktəbdaxili nəzarət, onun forma və metodları
72. Müəllim işinin xüsusiyyətləri və onun pedaqoji ustalığı
73. Sinif rəhbəri işinin xüsusiyyətləri və onun pedaqoji qabiliyyəti
74. Məktəb, ailə və ictimaiyyətin əlaqə formaları
75. Ailə ilk tərbiyəçi və tərbiyə ocağı kimi

**Fənnin təqvim planı:**

| Həftələr | Tarix və saat | Mövzunun sırası, adı və əhatə etdiyi məsələlər (plan) | Tapşırıqların məzmunu | Mənbələr |
|---|---|---|---|---|
| I | | **Mövzu 1. İnsan haqqında elmlər sistemində pedaqogikanın yeri və rolu**<br>1. Pedaqogika elminin yaranması və inkişafı<br>2. Pedaqogikanın obyekti, predmeti və funksiyaları<br>3. Pedaqogikanın əsas anlayışları<br>4. Pedaqoji elmlər sistemi<br>5. Pedaqogikanın digər elmlərlə əlaqəsi | Ədəbiyyat üzərində Iş | **1, 7-28;<br>2, 8-28;<br>3, 6-20;<br>4, 5-18;<br>5, 7-37;<br>6, 5-11;<br>Mühazirə mətni** |
| II | | **Mövzu 2. Şəxsiyyətin inkişafı pedaqoji problem kimi**<br>Plan:<br>1. İnsanın bioloji və sosial inkişafı, onun şəxsiyyətinin formalaşması<br>2.Şəxsiyyətin inkişafının əsas qanunauyğunluqları və hərəkətverici qüvvələri<br>3. Şəxsiyyətin formalaşmasına təsir edən amillər<br>4. Şəxsiyyətin inkişafını yaş dövrləri | Təqdimat hazırlamaq | **1, 63-80;<br>2, 72-94;<br>3, 73-108;<br>4, 252-307;<br>5, 50 -96;<br>6, 11-14;<br>Mühazirə mətni** |
| III | | **Mövzu 3. Təlim və təhsil prosesinin mahiyyəti və vəzifələri**<br>Plan<br>1. Didaktika haqqında ümumi anlayış<br>2. Təlim didaktik proses kimi<br>3. Təlim prosesinin funksiyaları<br>4. Təlimin metodoloji əsasları | Referat hazırlamaq | **1, 80-92;<br>2, 114-146;<br>3, 182-214;<br>4, 44-63;<br>5, 97-136;<br>6, 37-40;<br>Mühazirə mətni** |

| | | | | |
|---|---|---|---|---|
| IV | | **Mövzu 4. Azərbaycan Respublikasının təhsil sistemi və onun prinsipləri**<br>1.Təhsil sistemi haqqında anlayış<br>2.Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri<br>3.Təhsilin formaları<br>4. Təhsilalma formaları<br>5.Təhsil sisteminin pillələri və səviyyələri<br>6. Əlavə təhsil | Təqdimat hazırlamaq | **1, 108 -120;<br>10, 4-68;<br>Mühazirə mətni** |
| V | | **Mövzu 5. Təlimin qanunauyğunluqları və prinsipləri**<br>1.Təlimin qanunları və qaunauyğunluqları anlayışları<br>2.Təlimin əsas qanun və qanunauyğunluqlarının icmalı | İcmal hazırlamaq | **1, 134-146;<br>2, 147-154;<br>3, 214-223;<br>4, 102-103;<br>5, 154-157;** |
| VI | | **Mövzu 6. Təhsilin məzmunu. Təhsil proqramı (Kurikulum)**<br>Plan<br>1.Təhsilin məzmunu anlayışı, onun mahiyyəti<br>2.Təhsilin məzmununun formalaşması haqqında əsas nəzəriyyələr<br>3.Dövlət təhsil standartı<br>4.Təhsil proqramı (Kurikulum)<br>5. Tədris planı, tədris proqramları, dərslik və dərs vəsaitləri<br>6. Təhsilin məzmununa verilən tələblər | Referat hazırlamaq | **1, 102-108;<br>2, 125-130;<br>3, 237-266;<br>4, 63-67;<br>5, 136-154;<br>6, 41-45<br>10, 13-14; 16-17; 17-18;<br>Mühazirə mətni** |

| | | | | |
|---|---|---|---|---|
| **VII** | | **Mövzu 7. Təlimin metodları və vasitələri**<br>Plan<br>1. Təlimin metodları, tərzləri və qaydaları anlayışı, onların mahiyyəti<br>2. Təlim metodlarının təsnifatı<br>3. Təlim vasitələri<br>4. Təlim metodu və vasitələrinin seçilməsi | Ədəbiyyat üzərində iş | **1, 162-183;**<br>**2, 177-204;**<br>**3, 266-339;**<br>**5, 184- 219;**<br>**6, 49-53**<br>**Mühazirə mətni** |
| **VIII** | | **Mövzu 8. Təlimin formaları və təşkili formaları**<br>Plan<br>1. Təlimin formaları və təşkili formaları haqqında anlayış<br>2.Təlim formalarının təşəkkülü və təkmilləşməsi<br>3. Təlim prosesinin təşkili formaları<br>4.Təlimin növləri | Təqdimat hazırlamaq | **1, 197-214;**<br>**2, 225- 223;**<br>**3, 302-340;**<br>**6, 53-110;**<br>**Mühazirə mətni** |
| **IX** | | **Mövzu 9. Təlimdə diaqnostika və yoxlama**<br>Plan<br>1.Təlim keyfiyyətinin diaqnostikası<br>2. Nəzarətin növləri, forma və metodları<br>3.Tədris fəaliyyətinin nəticələrinin hesaba alınması və qiymətləndirilməsi<br>4. Qiymətləndirmədə səhvlər | İcmal hazırlamaq | **1, 184-196;**<br>**2, 2272-283;**<br>**4, 236, 253;**<br>**Mühazirə mətni** |
| **X** | | **Mövzu 10. Tərbiyənin mahiyyəti, məqsədi və vəzifələri**<br>Plan<br>1. Tərbiyənin vəzifələri və funksiyaları<br>2.Tərbiyə prosesinin xüsusiyyətləri<br>3.Şəxsiyyətin özünütərbiyəsi və yenidən tərbiyəsi | Referat hazırlamaq | **1, 235-251;**<br>**2, 284-298;**<br>**3, 341-360;**<br>**6, 111-112** |

| | | | | |
|---|---|---|---|---|
| **XI** | | **Mövzu 11. Tərbiyənin prinsipləri**<br>Plan<br>1. Tərbiyə prinsipləri tərbiyənin qanunauyğunluqlarının inikası kimi<br>2. Tərbiyənin prinsiplərinin təsnifatına müxtəlif yanaşmalar<br>3. Tərbiyə prinsiplərinin xarakteristikası<br>4. Tərbiyə prinsiplərinin qarşılıqlı əlaqəsi | Referat hazırlamaq | **1, 266- 275;**<br>**3, 364-382;**<br>**6; 112-116;** |
| **XII** | | **Mövzu 12. Şəxsiyyətin baza mədəniyyətinin formalaşdırılması. Tərbiyənin məzmunu.**<br>Plan<br>1.Ümumbəşəri dəyərlərin formalaşdırılması şəxsiyyətin mədəniyyətinin əsası kimi<br>2.Pedaqoji dəyərlər anlayışı və onların təsnifatı<br>3. Şəxsiyyətin baza mədəniyyətinin formalaşdırılması | Referat hazırlamaq | **1, 296-402;**<br>**2, 63-71;**<br>**347-386;**<br>**3, 403- 472;**<br>**6, 123-152;**<br>**Mühazirə mətni** |
| **XIII** | | **Mövzu 13. Tərbiyənin metodları, formaları və texnologiyaları**<br>Plan<br>1. Tərbiyənin metodları anlayışı<br>2.Tərbiyənin ümumi metodlarının təsnifatı<br>3.Pedaqoji dəstək, onun mahiyyəti və məzmunu<br>4. Tərbiyənin vasitələri<br>5. Tərbiyə metodlarının seçilməsi | Təqdimat hazırlamaq | **1, 276-296;**<br>**2, 307-326;**<br>**3, 382-403;**<br>**4, 320-328;**<br>**6, 116-122;**<br>**Mühazirə mətni** |
| **XIV** | | **Mövzu 14. Məktəbin idarə edilməsi və ona rəhbərlik.**<br>Plan<br>1.Təhsilin idarə edilməsinin xüsusiyyətləri<br>2. Təhsilin idarəedilməsinin əsas prinsipləri<br>3.Məktəb idarəetmənin obyekti kimi<br>4. İdarəetmənin funksiyaları, metod və formaları<br>5. Məktəb rəhbərlərinin hüquqları və vəzifələri<br>6. Məktəbdaxili nəzarət anlayışı<br>7. Məktəbdaxili nəzarətin formaları və metodları<br>8. Dərsin dilənilməsi məktəbdaxili nəzarətin forması kimi<br>9. Məktəbdaxili nəzarətə verilən tələblər | Referat hazırlamaq | **1, 419-429;**<br>**2, 424-447;**<br>**3, 504-537;**<br>**4, 359-408;**<br>**5, 460-470;**<br>**Mühazirə mətni** |

| | | | | |
|---|---|---|---|---|
| **XV** | | **Mövzu 15. Müəllim və sinif rəhbəri işinin xüsusiyyətləri**<br>**Plan**<br>1. Müəllim peşəsinin meydana gəlməsi və inkişafı<br>2. Müəllimin cəmiyyətdə rolu<br>3. Müəllimin başlıca vəzifələri<br>4. Müəllimin peşə bacarıqları<br>5. Müəllim şəxsiyyəti və onun peşə keyfiyyətləri | Sxem hazırlamaq | **2, 39-62;**<br>**3, 472-478;**<br>**4, 19-44;**<br>**5, 411-440;**<br>**450-459;**<br>**7, 6-120;**<br>**12, 214-242;**<br>**13, 17-127;**<br>**Mühazirə mətni** |

**Müəllim:** ________________________________

(soyadı, adı, atasının adı)

**İmza:**______________

**Tarix:** _________________